*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 dekabr 2014-cü il № 93 (1910) Qiyməti 25 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 dekabr 2014-cü il.

## ABŞ Dövlət Departamenti: Dağlıq Qarabağ münaqişəsi barədə ABŞ-ın mövqeyi dəyişməzdir

ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Mari Harf dekabrın 2-də bildirib ki, Dağlıq Qarabağ münaqişəsi məsələsində Birləşmiş Ştatların mövqeyi dəyişməyib.

Dövlət Departamentinin nümayəndəsi erməni separatçılar tərəfindən "Dağlıq Qarabağın müstəqilliyi" (oxu: "Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin erməni qoşunları tərəfindən hərbi yolla ilhaq edilməsi") münasibətilə ABŞ Konqresinin Reybern binasındakı otaqların birində keçirilmiş tədbir barədə, Dağlıq Qarabağ münaqişəsinin həllinə ABŞ Administrasiyasının münasibətinin nə dərəcədə dəyişməsi haqda sualları cavablandıraraq deyib: "Dağlıq Qarabağ məsələsi barədə ABŞ hökumətinin mövqeyi dəyişməyib. Konqresdə bu cür tədbirlər keçirə bilərlər, biz Konqresin işlərinə qarışa bilmərik, lakin mövqeyimiz dəyişməyib. Biz münaqişənin tənzimlənməsinə nail olmaq üçün bütün tərəflərə kömək etmək istəyirik və bunu həmişə demişik".

O, daha sonra əlavə edib: "Bəzən bizim mövqeyimiz konqresdə deyilənlərlə üst-üstə düşmür".

Məlum olduğu kimi, M.Harf Konqres barədə danışarkən 435 üzvü olan konqresin əksəriyyətinin yox, ermənipərəst əhval-ruhiyyəli bir neçə konqresmenin iştirak etdiyi tədbiri nəzərdə tutur. Sirr deyil ki, erməni lobbisi, o cümlədən "Amerika-erməni milli komitəsi" hər il "müstəqillik bayramı" münasibətilə konqres binasındakı otaqların birində şou təşkil edir və 435 konqresmenin, 100 senatorun hər birini həmin tədbirə dəvət edir, lakin oraya yalnız böyük erməni icmalarının mövcud olduğu ştatların seçki dairələrini təmsil edən bir neçə ermənipərəst qanunverici gəlir.

Erməni KİV-lərinin verdiyi məlumata görə, builki tədbirdə hər biri böyük erməni icması mövcud olan dairələri təmsil edən cəmi bir neçə konqresmen iştirak edib: ABŞ Konqresində erməni kokusunun həmsədri, antiazərbaycan fəaliyyəti ilə çoxdan məşhur olan Frenk Salon (Nyu-Cersi), Devid Siselin (Rod-Aylend), valideynlərindən biri erməni olan Anna Eqo, Bred Şerman, Cim Kosta, Cudi Çu, Denis Xaan, Linda Sançes (hamısı - Kaliforniyadan) və Kerri Bentivolio (Miçiqan).

ABŞ-ın qanunverici, məhkəmə və icra hakimiyyəti orqanlarının Dağlıq Qarabağ münaqişəsi barədə mövqeyi dəyişməz qalır. ABŞ Dağlıq Qarabağdakı oyuncaq rejimin müstəqilliyini tanımır, lakin beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

**AzərTAc**

*Ömrünü xalqına həsr edən əbədiyaşar rəhbər*

# Silahlı Qüvvələrin formalaşması ümummilli liderin adı ilə bağlıdır

***SSRİ tarixin obyektiv inkişaf qanunauyğunluqlarına əsasən süquta uğradıqdan sonra Azərbaycan öz müstəqilliyini yenidən bərpa etməyə nail oldu. Ancaq dövlətimizin ən zəruri atributlarından olan ordumuzun formalaşması prosesi dinc və rahat olmadı. Strukturunun hələ tam yaradılmadığı və komplektləşdirilmədiyi bir vaxtda Silahlı Qüvvələrimizin hissə və bölmələri güclü və xain havadarlarına arxalanan, əzəli torpaqlarımıza göz dikmiş işğalçı Ermənistan silahlı birləşmələrinə qarşı ölüm-dirim davasına qoşulmağa məcbur edildi, Respublikamızın ərazi bütövlüyünü qorumaq uğrunda mübarizəyə mahiyyət etibarilə hazırlıqsız qatıldı.***



Keçmiş ölkə rəhbərliyinin dövləti idarəetmə təcrübəsinin yoxluğu, arxasında regionun qüdrətli dövlətinin, dünyaya səpələnmiş, Qarabağ savaşına əvvəlcədən kifayət qədər hazırlaşmış güclü erməni lobbisinə məxsus təbliğat maşınının dayandığı Ermənistanla müharibədə aydın, düşünülmüş strateji xətt yeridə bilməməsi, müharibə aparan ölkədə ictimai-siyasi sabitliyə nail olmaması ordu hissələrində də mənəvi-psixoloji iqlimə mənfi təsir göstərmiş, hərbi kollektivlərdə intizamsızlığın baş alıb getməsinə gətirib çıxarmış, dərəbəylik, mənəm-mənəmlik, özbaşınalıq hökm sürmüşdü. Bütün bunların və digər amillərin nəticəsi kimi cəbhədə uğursuzluqlar baş verdi, düşmən torpaqlarımızın bir hissəsini işğal etməyə nail oldu.

Heç kəsə sirr deyil ki, dövlət quruculuğunun bir qolu kimi müstəqil Azərbaycan Silahlı Qüvvələrində elmi əsaslarla quruculuq işləri xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra başlandı. Keçmiş rəhbərliyin dəvəti və xalqın istəyilə Heydər Əliyevin hakimiyyətə qayıtması siyasi, iqtisadi və ictimai sahələrdə olduğu kimi, orduda da ciddi islahatların həyata keçirilməsi üçün dönüş nöqtəsi oldu.

Ordunun dövlət üçün nə qədər önəmli bir struktur olduğunu daim nəzərində saxlayan görkəmli dövlət xadimi, əslində, hələ sovet dönəmində - respublikamıza rəhbər vəzifəyə gətiriləndən iki il sonra, yəni, 1971-ci ildə böyük çətinlik və maneələri dəf edərək, Azərbaycan gənclərinin Silahlı Qüvvələrdə daha geniş təmsil olunması üçün cəsarətli bir addım atdı. Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Lisey kimi tanınan ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail oldu.

İlk buraxılış zamanı bu məktəbi 49 nəfər bitirərək keçmiş SSRİ-nin ali hərbi məktəblərinə daxil oldu. Bu gün bu məktəbin yetirmələri Azərbaycan Silahlı Qüvvələrinin kadr ehtiyatının əsasını təşkil edirlər. Ümummilli liderimiz bu münasibətlə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illiyi mərasimində çıxış edərkən fəxrlə demişdi: "1972-1973-cü illərdə daxil olmuş gənclər, uşaqlar burada çıxış edirlər. İndi onlar generaldırlar, polkovnikdirlər, korpusa komandanlıq edirlər, böyük hərbi hissələrə komandanlıq edirlər. Mənim arzum bu idi. Mən bu arzuma çatmışam".

Azərbaycanlı gənclərin təhsil almaq üçün keçmiş Sovetlər Birliyinin ali hərbi məktəblərinə göndərilməsi də ümummilli lider Heydər Əliyevin adıyla bağlı idi. Əslində, bütün bunlar böyük dövlət xadiminin siyasi uzaqgörənliyini, Vətəninin, xalqının taleyini düşünməsinin nəticəsi idi. Təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində bu potensialdan səmərəli istifadə olunmadı, torpaqlarımıza təcavüz etmiş ermənilər məlum havadarlarının köməyilə ərazilərimizin bir qismini zəbt etdilər.

Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra ordu strukturları zərərli ünsürlərdən təmizləndi, xalqına, dövlətinə sadiq, siyasi proseslərdən uzaq peşəkar zabitlər hərbi hissələrdə sağlam mənəvi iqlimin yaradılması üçün tədbirlər görməyə başladılar, şəxsi heyət arasında nizam-intizam gücləndirildi və ordunun möhkəm olması üçün əsas prinsip hesab edilən vahid komandanlıq bərqərar edildi, kadr hazırlığına diqqət artırıldı. Dövlət rəhbərliyi tərəfindən orduda baş alıb gedən neqativ halların aradan qaldırılması, mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər görüldü. Hərbi intizamın, vahid rəhbərlik prinsipinin möhkəmləndirilməsi, döyüş hazırlığı problemlərinə və təlim prosesinə getdikcə daha çox diqqət yetirilməsi, ordunun maddi-texniki təminatının il-bəil yüksəldilməsi nəticəsində Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi.

Ən vacib amillərdən biri olan kadr hazırlığına dövlət rəhbərliyi səviyyəsində qayğı göstərildi. Böyük dövlət xadimi Heydər Əliyev prezident olarkən Azərbaycanda hərbi təhsilin müasir dünya standartlarına uyğunlaşdırılması üçün bir sıra mühüm addımlar atdı, hərbi məktəblərin maddi-texniki bazası xeyli yüksəldildi.

Məlum olduğu kimi, 1997-ci ilədək hərbi təhsil ocaqlarında təhsil keçmiş SSRİ-də mövcud olmuş sistemə uyğun təşkil edilmişdi. Ancaq həmin vaxtdan kursantlarımız qabaqcıl NATO ölkələrində qəbul edilmiş metodika əsasında hərbi bilik və təcrübə qazanırlar.

Silahlı Quvvələrin bütün qoşun növlərinin ixtisaslı kadrlarla təmin edilməsi dövlət rəhbərliyinin daim diqqətində olan məsələlərdən olub. Müstəqillik dövründə respublikamızda daha bir ali hərbi təhsil ocağı - Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi fəaliyyətə başlayıb və buranı bitirmiş zabitlər Hərbi Hava Qüvvələrində xidmətlərini uğurla davam etdirirlər.

Bu gün zabit kadrlarının peşəkarlığını arzuolunan səviyyəyə qaldırmaq məqsədilə kompleks tədris sistemi yaradılıb. 1998-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası fəaliyyət göstərir. Bunlardan əlavə, orduda müxtəlif ixtisasartırma kursları, gizirlər və miçmanlar hazırlayan məktəb və s. Silahlı Qüvvələrin hərbi mütəxəssislərə olan tələbatını tam ödəmək iqtidarındadır.

**(Ardı 2-ci səhifədə)**

## Litva tarixçisi: Ermənistan və Qarabağ separatçıları beynəlxalq hüququn bütün prinsiplərini pozublar

Dekabrın 2-də Litvanın www.slaptai.lt internet nəşrində tarixçi alim Gintaras Vayçunasın "Təcavüzkarla qəribə dostluq" sərlövhəli məqaləsi yer alıb.

G.Vayçunas məqalədə qeyd edir ki, hamı tərəfindən qəbul olunmuş hüquq normalarına məhəl qoymayan təcavüzkarlar qanunsuz hərəkətlərinə bəraət qazandırmaq üçün bu normalardan çox vaxt sipər kimi istifadə edirlər. Bu, Ermənistan ordusu və yerli separatçılar tərəfindən işğal edilmiş Dağlıq Qarabağ məsələsinin həllində də aydın şəkildə görünür.

Alim Litva Seyminin deputatı, qondarma "Litva və Dağlıq Qarabağ dostluq qrupu"na başçılıq edən Dalya Kuoditenin sözlərini sitat gətirir. Dalya Kuodite özünün internet səhifəsində yazır: "Erməniləri azadlıq uğrunda mübarizəyə sövq edən stimul məhz Dağlıq Qarabağ məsələsi olub. Litva isə onları dəstəkləyir, təyini-müqəddərat hüququnu müdafiə edir". G.Vayçunas belə bir sual verir: "Məgər Qarabağdakı azərbaycanlıların hüquqları məhdudlaşdırılmırmı? Onlar öz canlarını qurtarmaq üçün evlərini və bütün əmlaklarını qoyub Vətəndən didərgin düşmək məcburiyyətində qalıblar". Litvalı alim əmindir ki, Dağlıq Qarabağ məsələsində ermənilərin təyini-müqəddərat prinsipi təkcə buna görə parodiyadır ki, əzəldən azərbaycanlıların doğma yurd-yuvalarından qovulması nəticəsində əldə olunub. O, beynəlxalq hüququn bütün normalarının, o cümlədən insan azadlıqları və hüquqları, sərhədlərin, ərazi bütövlüyünün toxunulmazlığı, habelə suveren dövlətin daxili işlərinə qarışmamaq prinsiplərinin Ermənistan və Qarabağ separatçıları tərəfindən pozulması faktlarını gətirir.

İnsanların böyük əksəriyyətinin beynəlxalq hüquqla maraqlanmadığını və görünür, Litva Seyminin bəzi üzvlərinin də bununla maraqlanmadığını hesab edən G.Vayçunas yazır: "Ola bilsin, bu, bizim Seymdə erməni lobbizminin uğurlu nümunəsidir, çünki artıq təcavüzkar ilə dostluq haqqında bəyanat faktı özlüyündə qəribədir".

**AzərTAc**

## Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələri İranı narahat edir

***Dekabrın 3-də Azərbaycanın Xarici işlər nazirinin müavini Xələf Xələfov İranın İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının rəhbəri Əbuzər İbrahimi Türkman ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, görüşdə Xələf Xələfov Azərbaycan və İran arasındakı əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. Nazir müavini İran Prezidenti Həsən Ruhaninin Azərbaycana səfərinin və səfər çərçivəsində imzalanmış sənədlərin iki ölkə arasındakı əlaqələrin dinamik inkişafının bariz nümunəsi olduğunu bildirib.

Regional sülh və təhlükəsizlik məsələlərinə toxunan Xələf Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində İranın mövqeyi və nümayiş etdirdiyi siyasi iradənin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Əbuzər İbrahimi Türkman ölkələrimiz arasında zəngin tarixi-mədəni əlaqələrin mövcudluğunu qeyd edib və bu əlaqələrin daha da inkişaf etməsinin zəruriliyini vurğulayıb. O, rəhbərlik etdiyi təşkilatın dünyanın 60-dan çox ölkəsində fəaliyyət göstərdiyini qeyd edib və bu təşkilatın ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına töhfə verəcəyini bildirib.

Ə.İ.Türkman Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələrinin İranı narahat etdiyini vurğulayıb.

# Silahlı Qüvvələrin formalaşması ümummilli liderin adı ilə bağlıdır

(Əvvəli 1-ci səhifədə)

Bundan əlavə, azərbaycanlı hərbçilər dünyanın nüfuzlu ölkələrinin ali hərbi təhsil ocaqlarında təhsil alır, təcrübələrini artırırlar.

Bir sözlə, MDB ölkələri arasında Rusiya və Ukraynadan sonra yalnız Azərbaycan professional kadr hazırlığının kompleks sistemini yaradıb və hazırda ölkəmizin hərbi məktəblərində Quru Qoşunları, Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələri üçün peşəkar zabitlər hazırlanır.

Hazırda şəxsi heyətinin böyük əksəriyyəti cəbhə bölgələrində məkrli düşmənlə üzbəüz səngərlərdə torpaqlarımızı qoruyan Azərbaycan Ordusunun nəyə qadir olduğunu onun nümayəndələrinin qatıldığı mötəbər beynəlxalq tədbirlərdə daha dolğun müşahidə etmək mümkündür. Məlum olduğu kimi, NATO-ya inteqrasiya istiqamətində ardıcıl addımlar atan Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Kosovo və İraqda sülhməramlı missiyalarını böyük uğurla yerinə yetirərək Vətənə qayıdıblar. Hazırda bir bölüyümüz narahat Əfqanıstanda əmin-amanlıq yaradılması işinə öz layiqli töhfələrini verməkdədir. Döyüşçülərimizin nümunəvi fəaliyyəti koalisiya komandanlığı tərəfindən yüksək qiymətləndirilib. Bu barədə NATO rəsmiləri müxtəlif səviyyəli beynəlxalq tədbirlərdə dəfələrlə bəyan ediblər. Əslində, ordunun güc və potensialını indi belə mötəbər tədbirlərdə təmsil olunan hərbçilərin nümayiş etdirdiyi bilik və bacarıq aydın göstərir, digər ölkələrin orduları ilə müqayisə etməyə imkan verir. Azərbaycan zabit və əsgərlərinin NATO təlimlərində, beynəlxalq sülhməramlı əməliyyatlarda ortaya qoyduğu hazırlıq, peşəkarlıq onu deməyə əsas verir ki, ordumuzun qüdrəti ilə hər bir azərbaycanlı fəxr edə bilər.

Ümummilli liderimiz Heydər Əliyevin yolunu davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev də Silahlı Qüvvələrin fəaliyyətini daim diqqətində saxlayır. Dəfələrlə hərbi hissələrimizə baş çəkmiş dövlət başçısı Silahlı Qüvvələrimizin fəaliyyətilə yaxından maraqlanıb və orduya həmişə dövlət səviyyəsində qayğı göstəriləcəyini bəyan edib.

Heydər Əliyev kursunun davamçısı olan Ali Baş Komandan ordu quruculuğuna dövlət qayğısından danışarkən deyib: "Hərbi büdcəmiz 20 dəfədən çox artmışdır. Azərbaycan Ordusu bu gün dünya miqyasında güclü ordular sırasındadır. Son on il ərzində alınmış silah-sursat, hərbi texnika Ermənistan ilə Azərbaycan arasındakı hərbi balansı artıq pozmuşdur. Bizim üstünlüyümüz dəfələrlə ölçülür. Eyni zamanda, Azərbaycanda son 10 il ərzində əvvəlki illərdə olmamış hərbi sənaye kompleksi yaradılmışdır. Bu gün onlarla zavod fəaliyyət göstərir, 750 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beləliklə, biz həm yeni istehsalat sahələri yaradırıq, eyni zamanda, xarici silah bazarlarından asılılığımızı azaldırıq. Hesab edirəm ki, növbəti illərdə biz ordu quruculuğu istiqamətində daha da böyük addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik".

Eyni zamanda onu da qeyd etməyə dəyər ki, ordu quruculuğunda əldə edilmiş nailiyyətlər təkcə texniki təchizatla bağlı deyil. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun qoşunlarımızın son zamanlar döyüş hazırlığı sahəsində həyata keçirdiyi tədbirlər şəxsi heyətin peşəkarlığını daha da yüksəldir. Azərbaycan Ordusunun zabit və əsgərləri ən müasir silah və texnikadan istifadə etməklə öz ixtisas və taktiki hazırlıqlarını durmadan möhkəmlədirlər.

Silahlı Qüvvələrimizin gücləndirilməsi hər şeydən öncə onun qarşısına müstəqil dövlətimizin etibarlı müdafiə edilməsi vəzifəsini qoyur. Eyni zamanda, Azərbaycan torpaqlarının Ermənistan silahlı birləşmələri tərəfindən hələ də işğal altında saxlanması Silahlı Qüvvələrimizin gücləndirilməsini zəruri edir.

Ordu quruculuğu sahəsində əldə edilmiş böyük nailiyyətlər, təbii ki, ümummilli liderimiz Heydər Əliyevin yaratdığı möhkəm zəmin üzərində əldə edilib. Ona görə Silahlı Qüvvələrimizin bütün şəxsi heyəti dünya şöhrətli dövlət xadimini dərin minnətdarlıq hissilə xatırlayır və həmişə ehtiramla yad edir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyənin səfirini qəbul edib

***Dekabrın 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab İsmayıl Alper Coşkunu qəbul edib.***



Görüşdə hər iki ölkənin Silahlı Qüvvələrinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, ikitərəfli hərbi əməkdaşlıq məsələlərinin əhəmiyyəti, regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bölgə üçün vacibliyi məsələləri müzakirə edilib.

Müdafiə naziri hər iki ölkənin Silahlı Qüvvələri nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili, birgə təlimlərin keçirilməsinin vacibliyini qeyd edərək hərbi, hərbi texniki, hərbi təhsil sahəsində əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini və bu fəaliyyətlərin gələcəkdə də davam etdirilməsinin zəruriliyini bildirib.

Sonra Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin perspektivləri və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşesi, briqada generalı Hasan Nevzat Taşdeler də iştirak edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***3 dekabr 2014-cü il.***

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, Silahlı Qüvvələrin yeni tədris ilinə hazırlığı yoxlanılır.

Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi ilə Baş Qərargahın zabitlərindən ibarət qrup cəbhə bölgəsində yerləşən hərbi birlik və birləşmələrdədir.

Yeni tədris ilinə hazırlıq məqsədilə keçirilən kompleks tədbirlər çərçivəsində bütün birlik, birləşmə və hərbi hissələrin döyüş qabiliyyəti, maddi-texniki-tədris bazasının vəziyyəti və digər təminat növləri, silah-sursat, hərbi texnika ilə təchizatı, şəxsi heyətin mənəvi-psixoloji durumu, nizam-intizamı və sosial şəraiti yoxlanılır.

***5 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 33 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Qızıl Oba, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Novruzlu, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Müdafiə naziri Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində olub





***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Hava Qüvvələrinin döyüş hazırlığını yoxlamaq məqsədilə Mərkəzi Komanda Məntəqəsində olub.***

Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Hərbi Hava Qüvvələrində qısa müddət ərzində döyüş hazırlığının yüksəldilməsi məqsədilə görülən işlər barədə Müdafiə nazirinə məruzə edib.

Ən müasir avtomatik idarəetmə sistemlərilə təchiz edilmiş Məntəqədə yaradılan şəraitlə tanış olan Müdafiə naziri Hərbi Hava Qüvvələri tərəfindən hava məkanındakı kəşfiyyat məlumatlarının toplanılması, təhlili, o cümlədən qərarların vaxtında qəbul edilməsinin vacibliyini şəxsi heyətin diqqətinə çatdırıb.

Müdafiə naziri Hərbi Hava Qüvvələrinin idarə edilməsi, iş bacarığının təkmilləşdirilməsi, modelləşdirmə proqramı əsasında Hərbi Hava Qüvvələrinin döyüş fəaliyyətlərini idarə edən heyətin praktiki vərdişlərinin artırılması, özünün və düşmən aviasiyasının, hava hücumundan müdafiə vasitələrinin imkanları, xüsusiyyətləri, döyüş tətbiqinin analiz edilməsi barədə Hərbi Hava Qüvvələri komandanlığı qarşısında tapşırıq qoyub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Zabitlər sınaq qarşısında

## Məharət dərəcəsi döyüş hazırlığının göstəricisidir



***Yiyələndiyin peşənin sirlərini mükəmməl bilmək ən vacib şərtlərdən biridir. Biz buna ordu həyatında daha çox rast gəlirik. Bu, həm də hərbi qulluqçunun aylıq məvacibinə də təsir edir. Hər kəs istəyər ki, məvacibində artım olsun. Bunun üçün nə etmək lazımdır? Söz yox ki, hər birimiz məharət dərəcəsi almaq üçün işimizdə məsuliyyət hissini artırmalıyıq. Komandanlığın təqdimatı ilə hərbi qulluqçu xidmət müddətində uyğun məharət dərəcələrindən birinə təqdim olunmalıdır. Bundan əlavə məharət dərəcəsi almaq üçün təqdim olunan hərbi qulluqçu ixtisasına uyğun olaraq imtahan verməlidir.***

Artıq Müdafiə nazirinin müvafiq əmrinə əsasən, birlik və birləşmələrdə əvvəlcədən təyin edilmiş komissiyalar öz işinə başlayıb. Zabit və gizirlərin döyüş və ictimai-siyasi hazırlıqda qazandıqları praktik və nəzəri biliklər yoxlanılır. Birlik komandirinin müavini zabit Həbib Məmmədov söhbətimizdə qeyd etdi ki, cəbhə bölgəsində xidmət aparmaq hər kəsdən məsuliyyət tələb edir. Öncə hər bir hərbi qulluqçu üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk etməlidir. Hazırda 2-ci və 1-ci məharət dərəcəsinə təqdim olunan hərbçilər tutduqları vəzifənin öhdəsindən bacarıqla gəlirlər. Əgər onlar imtahandan müvəffəqiyyətlə keçə bilsələr, o zaman təqdim olunduqları dərəcələri alacaqlar.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin bir qrup zabiti məharət dərəcəsinə təqdim olunanlardan yerlərdə imtahan götürmək üçün cəbhə bölgəsinə ezam olunub. İmtahan komissiyasının sədri polkovnik-leytenant Emin Səfərov bildirdi ki, məharət dərəcəsini almaq üçün təqdim olunan zabitlər şəxsi heyətlə iş üzrə komandir müavinləri və psixoloqlardır. Öncədən tərtib olunmuş qaydaya əsasən hər bir zabit yaş qrupuna uyğun olaraq sıra, fiziki, atəş hazırlıqları üzrə tələb olunan normativləri yerinə yetirməli, həmçinin, hərbi avtomobilləri müxtəlif maneələri qət etməklə idarə etmək bacarıqlarını sınaqdan keçirməlidir. Onların nəzəri biliklərini müəyyən edən test suallarının cavablarını toplamaqla ümumi nəticəyə gəlirik. Əgər zabitin topladığı qiymət onun təqdim olunduğu dərəcəyə uyğun olarsa, bu zaman hərbi qulluqçuya müvafiq məharət dərəcəsi təsdiq olunacaq.



Biz yenicə istifadəyə verilmiş poliqondayıq. Dərəcələrə təqdim olunan zabitlər bu dəfə döyüş-atışlı çalışmanı yerinə yetirəcəklər. Sərrast atəş açmaq hər bir zabitin peşəkarlığının, döyüş hazırlığı üzrə bilik və bacarığının göstəricisidir. Bu dəfə zabitlər 200 metr məsafədə yerləşən hədəfə atəş açmaqla öz məharətlərini göstərə bildilər. Zabitlərdən Fikrət Məmmədov, Rafiq Mustafayev və başqaları tutduqları vəzifənin öhdəsindən bacarıqla gəldikləri kimi, atəş çalışmalarını da mükəmməl yerinə yetirə bildilər.

Hərbi qulluqçuların bu cür imtahan olunması onlarda xidmətə məsuliyyət hissini artırır. Əslində, məharət dərəcəsi almaq istəyən hərbçi ilk növbədə özünə qarşı tələbkar olmalıdır. Bu zaman zabit vəzifə borclarını mükəmməl öyrənməyə daha maraqlı olur.

Əsgərin döyüşə mükəmməl hazırlığının onun fərdi bacarıqlarından asılı olduğu məlumdur. Belə ki, hər bir əsgərin nizam-intizamı, atəş, taktiki, fiziki və başqa hazırlıqları onun komandirinin aşıladığı hərbi biliklərdən asılıdır. Vurğulamaq lazımdır ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da bölmənin döyüş qabiliyyəti üçün xüsusilə önəmlidir. Tabeliyində olan əsgərlərə döyüş ruhu aşılamaq bu sahəyə cavabdeh olan zabitlərin qarşısında duran başlıca vəzifədir.

İmtahan komissiyasının üzvü polkovnik-leytenant Arif Kərimov deyir ki, hərbi qulluqçu üçün vacib amillərdən biri də nizam-intizamdır. Bu da bildiyimiz kimi sıradan başlanır. Silahlı və silahsız sıra hərəkətlərini dəqiq yerinə yetirməsi hərbi qulluqçu üçün mühüm şərtdir. Şübhəsiz, komandirin komanda vermək bacarığı da yüksək səviyyədə olmalıdır.

Artıq ordumuz peşəkar zabitlərdən ibarətdir. Biz bunu keçirilən təlimlərdən, taktiki-atış çalışmalarının nəticələrindən, ən nəhayət isə, cəbhə bölgəsindəki uğurlarımızdan aydın görürük. Yağı tapdağı altında qalan torpaqlarımızın azad edilməsi üçün Azərbaycan zabiti hər an Ali Baş Komandanın döyüş əmrini gözləyir. Biz cəbhə bölgəsində hər addımda bunu hiss edirik.

Əvvəlki dövrlərdə ordumuzda mənəvi-psixoloji hazırlıq sahəsində boşluq hiss edilirdisə, indi aparılan islahatlar qısa müddətdə bu sahədə öz nəticəsini verib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və tərbiyə işinin təşkilinə xüsusi diqqət ayırır. Orduda mənəvi-psixoloji hazırlıq işi döyüş hazırlığının ayrılmaz bir hissəsi olduğu üçün bu sahənin inkişafına ciddi önəm verilməlidir. Hazırda məharət dərəcəsi almaq istəyən zabitlər məhz bu vacib sahəyə məsul olan şəxslərdir. Onlar imtahan verməklə bilik və bacarıqlarını daha da təkmilləşdirirlər.

İmtahan zamanı diqqətimi daha çox cəlb edən zabitlərin intizamı, verilən hər bir komandanı vaxtında və dəqiq yerinə yetirmələri idi. Gündəlik həyatının əsas hissəsini ordu sıralarında keçirən və halal zəhməti hesabına pillə-pillə yüksələn dəyərli peşə sahiblərinin məharət dərəcəsi almaq üçün bilik və bacarıqlarını sərf etdikləri aydın hiss edilirdi. Gerçəkdən, hər bir zabitin bu əziyyətə qatlaşmasının xüsusi özəlliyi var. Bu özəllik ondadır ki, ona Vətənin qorunması kimi şərəfli vəzifə etibar olunub. Hər kəsə bu müqəddəs yolda uğurlar arzulayırıq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Əsgərlərə yaradılan şərait yüksək dövlət qayğısının təzahürüdür

***Orduya dövlət qayğısı ilbəil artır. Bölgələrdə hərbçilərin sosial şəraiti yaxşılaşır. Bu, dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya olan diqqət və qayğısının təzahürüdür. Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla nazirliyin rəhbər heyətinin tez-tez cəbhə bölgəsində olması burada xidmət edən əsgər və zabitlərin döyüş və mənəvi-psixoloji hazırlığına böyük təsir göstərir.***



Düşmənlə təmas xəttində xidmət edən hərbçilərə dövlət qayğısının artırılması istiqamətində görülən işlər artıq göz qabağındadır. Bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhə bölgəsində olarkən müasir dövrün tələblərinə cavab verən əsgər yataqxanalarının, idman şəhərciyinin, bütün şəraitə malik olan poliqonun açılışında iştirak edib. Müdafiə naziri yeni tikilmiş əsgər yataqxanalarına, sinif otaqlarına, yeməkxanaya baş çəkib. Podratçı şirkətin rəhbərinə yüksək keyfiyyətli avadanlıqların quraşdırılması üçün tapşırıqlar verib.

Zabit Həbib Məmmədov söhbətimizdə bildirdi ki, döyüşçülərin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər şəxsi heyətdə xoş ovqat yaradıb.

Uzaqdan adama könül xoşluğu verən yeni tikililəri görüncə düşündüm: Silahlı Qüvvələrimizdə aparılan islahatlar hərbi qulluqçularımızın xidmətinin müasir səviyyədə qurulmasını təmin edir. Bu düşüncələri bölüşmək üçün şəhərcikdə zabit Elmar Məmmədovla həmsöhbət oldum. O, tikintinin gedişinə nəzarət edən zabitlərdən biridir. Burada aparılan tikinti-quruculuq işlərinin böyük zəhmət hesabına başa gəldiyini bildirən zabit dedi:

- Müasir əsgər yataqxanaları, yeməkxanalar (yay və qış mövsümü üçün), avtomobil parkı, hamam və s. obyektlərin su və elektrik təchizatı kimi mühüm işlərin görülməsinə ciddi nəzarət edirik.

Əraziyə daxil olanda yeni binaların fasadlarını bəzəyən ümummilli liderimiz Heydər Əliyevin cəbhədə döyüşçülərlə çəkdirdiyi şəkillər, görkəmli dövlət xadiminin Azərbaycan Ordusu haqqında kəlamları, həmçinin ölkəmizin başçısı İlham Əliyev cənablarının döyüşdə fərqlənən əsgər və zabitləri səngərdə mükafatlandırarkən çəkilən şəkillər adama xoş ovqat aşılayır. Bütün bunlar onu göstərir ki, orduya qayğı dövlət başçısı səviyyəsində həyata keçirilir.

Əsgər yataqxanasına daxil oluram. Gün növbətçisinin xidmət aparması üçün yaradılan şərait daha çox nəzərimi çəkdi. Qapısı dəmir barmaqlıqlardan olan silah saxlama otağı, əşya anbarı, məişət otaqları lazımi avadanlıqlarla təchiz olunub. Müasir tipli çarpayılarla təmin olunmuş əsgər yataqxanaları təlimdən sonra şəxsi heyətin istirahəti üçün əlverişli olacaq. Hər bir binada keyfiyyətli istilik sistemi quraşdırılıb. Bir sözlə, burada əsgəri heyətin sağlamlığını və təhlükəsizliyini təmin edəcək son texnologiyalardan istifadə olunub.







Əsgər yataqxanalarında və sinif otaqlarında quraşdırılan televizorlar da bir mərkəzdən idarə olunacaq. Bu da şəxsi heyətin ölkəmizdə və dünyada baş verən hadisələrlə ətraflı məlumatlandırılmasına zəmin yaradacaq, onların asudə vaxtının səmərəli təşkil edilməsinə imkan verəcək.

Hərbi texnikaların saxlanması üçün yaradılan avtomobil parkı da sürücülərin və təmirçilərin istifadəsinə tam hazırdır.

Ərazidə yeni salınmış yaşıllıqlar, əkilən tinglər adama xoş ovqat bəxş edir. Bir qədər aralıda isə idman şəhərciyi yerləşir. Şəxsi heyətin fiziki çalışmalarının yerinə yetirilməsi üçün quraşdırılmış turnik, paralel qollar və başqa idman qurğuları ardıcıllıqla sıralanıb. Kross, 100 metr məsafəni qət etmək üçün müəyyən edilmiş ərazi, futbol və voleybol meydançaları da əsgərlərin istifadəsinə tam hazırdır. Yaxınlıqda yerləşən atış meydanından gələn mərmilərin partlayış səsləri artıq yeni poliqonun əsgərlərin istifadəsində olduğunu təsdiq edir...



Müasir tələblərə cavab verən və döyüşçülərimizin rahatlığını təmin edən bu yeni məkandan xoş arzularla ayrılıram.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

---

*Ordu və cəmiyyət*

# "Ordumuzla hər birimiz fəxr edirik"

***Qatarla ezamiyyətə gedərkən kupedə məndən başqa iki nəfər də vardı. Mən vaqona minəndə artıq onlar öz yerlərini tutmuşdular. Salam verib bir yanda oturdum, vaqondan pəncərəyə baxıb qatarın tərpənməsini gözlədim.***

Şirin-şirin söhbətlərindən hiss etmək olardı ki, onlar bir-birilərini çoxdan tanıyırlar. Həyat, xeyir və şər, məişət barədə söhbət edir, ailə qayğılarından danışırdılar. Bu sadə insanların söhbətləri səmimi idi.

Söhbətin bir məqamında son zamanlar cəbhədə baş verən hadisələrin üstünə gəldilər. Düşməndən üstün olmağımız barədə iftixarla danışmaları ürəyimdən oldu. Bu gün orduda gedən dəyişiklikləri müşahidələrinə əsasən dəyərləndirirdilər. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun sorağının cəbhə bölgələrindəki hərbi hissələrdən tez-tez gəldiyini, genişmiqyaslı təlimlərin keçirilməsini, ordumuzun xeyli güclənməsini qeyd edirdilər.



Onların söhbətinə müdaxilə etmək qərarına gəldim. Məlum oldu ki, ixtisasca baytar həkimi olan Bərşad Mirzəyev Beyləqan rayonunun Kəbirli kəndindəndir. 53 yaşlı yol yoldaşım Bakıdan müalicədən qayıdırdı. Qeyd edim ki, bu kənd ziyalısının kiçik oğlu Elgiz əsgər kimi Vətənə xidmətini başa vurduqdan sonra yenidən könüllü ordu sıralarına qayıdıb. Hazırda müddətdən artıq hərbi qulluqçu kimi hərbi hissələrimizdən birində xidmət edir.

- Mən indiyədək ancaq yoxuşa çıxmışam, eniş görməmişəm, - söhbətə Bərşad bir qədər uzaqdan başladı. Yəni, sadə zəhmət adamı olduğunu, kəndin bütün çətinliklərinə qatlaşdığını, hər kəsin köməyinə çatdığını, bir sözlə, həyatda heç nəyə asanlıqla nail olmadığını, övladlarının əlini çörəyə çatdırdığını təmkinlə, astadan söylədi.

Müharibə dövrünü yaxşı xatırladığını dilə gətirən həmsöhbətim düşmənin Beyləqan şəhərinin həndəvərinə gəlib çıxdığını, rayon sakinlərinin hansı əhval-ruhiyyədə olduğunu yadından çıxarmayıb.

- O vaxt, doğrusunu desək, orduya sakinlər arasında inam az idi, - Bərşad Mirzəyev düşüncələrini bölüşür. - Bunun da öz səbəbləri vardı. Torpaqlarımız, şəhər və kəndlərimiz itirilmişdi, hərbçilər, dinc sakinlər arasında itkilər az deyildi. Həmin ağır dövrdə hökumətdə də zəiflik çox idi. Ordu bölmələrində intizamsızlıq, fərarilik baş alıb gedirdi. Hərbçilər saqqallı gəzirdilər, geyimlərinə belə fikir vermirdilər.

Allah rəhmət eləsin, Heydər Əliyev hakimiyyətə gələndən sonra orduda dönüş yarandı. Düşmən Azərbaycanın Stalinqradı adlanan Beyləqanın həndəvərindən qovuldu. Ölkədə daxili sabitlik yaradıldı. İnsanlar bundan sonra rahatlaşdılar, toxtaqlıq tapdılar.

Azərbaycan uzaqgörən dövlət rəhbərinin başçılığı ilə dirçəlməyə başladı. Böyük neft müqavilələri bağlandı. Ölkə iqtisadiyyatı inkişaf etməyə başladı.

Büdcə pulla dolandan sonra orduya da böyük diqqət yetirildi. Bu gün müasir hərbi hissələr tikilib. Ordumuz dünyada mövcud olan ən müasir silahlarla təmin olunur. Prezidentimiz İlham Əliyev ümummilli liderimizin işlərini layiqincə davam etdirir. O, hər çıxışında ordu quruculuğuna toxunur, təlimlərdə iştirak edir, hərbi hissələrə baş çəkir. Bu, dövlət başçısının orduya münasibətidir.

Ordu olmasa, dövləti, xalqı düşməndən kim müdafiə edər? Ona görə də hamımız ordumuzu sevməliyik. Onun daha da güclənməsi üçün hər bir azərbaycanlı dəstək olmalıdır. Camaat da bunları başa düşür, ordumuzun qüdrətləndiyini görür, sevinir. İnsanlarda ümid, inam yaranır ki, ordumuz Ermənistanın işğal elədiyi müqəddəs Vətən torpaqlarını düşməndən azad edəcək. Hər birimiz ordumuzla fəxr edirik.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

---

***Səhər vaxtı hərbi hissəyə "Azərbaycan Ordusu" qəzetindən müxbirlərin gələcəyini eşidəndə çox sevindim. Polkovnik-leytenant Şövqi Məmmədov dəfələrlə bu qəzet haqqında bizə ətraflı danışıb, burada əsgər məktublarını dərc etdirməyin mümkünlüyünü qeyd edib. Hərbi müxbirlərin gələcəyini eşidib öz düşüncələrimi qələmə almağı qərara alıram.***

*Əsgərin tribunası*

# Arzusunda olduğum zərli paqonlar...

Əvvəlcə özüm haqqında bir neçə kəlmə qeyd etmək istərdim. Mən, əsgər Əli Bağırlı, hərbi andı qəbul etdikdən sonra xidmətimi burada davam etdirirəm. Xidmətə Bakının Səbail rayonundan çağırılmışam. 9 aydır hərbi xidmətdəyəm. Hələ uşaq yaşlarımdan əsgər olmaq arzusunda olmuşam. Çünki düşmənimizin varlığından xəbərdar idim. Valideynlərim ermənilərin xalqımızın başına açdıqları müsibətlər haqqında tez tez danışırdılar. Uşaq və qadınların vəhşicəsinə qətlə yetirilməsi, işgəncələrə məruz qalması məndə hiddət doğururdu. Ona görə də tez bir zamanda cəbhə xəttində xidmətə başlamaq, düşmənlə üzbəüz dayanan Vətən oğullarının sırasına qatılmaq istəyirdim.



Başqalarından fərqli olaraq, mən hələ uşaq olanda atamın çiynindəki zərli paqonların fərqindəydim. İllər ötdükcə əsgər olmağın nə demək olduğunu daha yaxşı anladım.

Artıq əsgərəm, məktubumu da cəbhə bölgəsində yerləşən hərbi hissəmizdən yazıram. Xidmətim başa çatana qədər komandirlərimdən öyrənməyə, döyüş vərdişlərinə yiyələnməyə çalışıram. Çünki xidmətimi başa vurub yenidən taleyimi hərbi işlə bağlamaq, atamın yolunu davam etdirmək fikrindəyəm. Torpaqlarımız azad olunana qədər Vətən uğrunda döyüşəcəyəm.

Xidmətimin ilk günündən özümə söz verdim ki, nizam-intizamlı olacağam, valideynlərimə başucalığı gətirəcəyəm. Burada bizi birləşdirən ümumi bir məqsəd var: Əzəli düşmənimiz olan mənfur ermənilərə qarşı mübarizə aparmaq, Vətəni bütün təhlükələrdən qorumaq. Və bizim qardaşlığımız belədir: Soyuq, isti bilmədən Vətənin keşiyində çiyin-çiyinə dayanmaq.

Məktub vasitəsilə valideynlərimə də ürək sözlərimi çatdırmaq istəyirəm. Gələndə söz vermişdim ki, təcrübəli döyüşçü olacağam. Sözümü tutmaq üçün daim öz üzərimdə çalışıram. Ata, yadındadırsa həmişə söhbət edəndə Vətənimizin qəhrəman övladlarından, onların vətənpərvərliyindən söz açar, mənə məsləhətlər verərdin. Məndən nigaran qalmayın. Xidmətimi uğurla başa vurub yanınıza alnıaçıq, başıuca qayıdacağam. Allaha əmanət olun.

Sonda bütün əsgər yoldaşlarıma da demək istəyirəm ki, hər zaman döyüşə hazır olmalıyıq. Qoy döyüş əmri verildikdə qələbə yalnız bizim olsun!

**Əli BAĞIRLI,**
**"N" hərbi hissəsinin əsgəri**

---

# Xəbərlər: hadisələr, faktlar

## Rusiya Türkiyəyə satdığı təbii qazın həcmini artıracaq, qiymətini aşağı salacaq



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Ankarada birgə mətbuat konfransı keçiriblər. Prezidentlər iki ölkə arasında münasibətlərin inkişafı, beynəlxalq proseslər, regional münaqişələrin həllinə qarşılıqlı yardım və digər məsələlər barədə fikirlərini bölüşüblər.

Qeyd edilib ki, Türkiyədə Atom Elektrik Stansiyasının tikintisi ilə bağlı əhəmiyyətli razılıq əldə olunub.

Bundan başqa, Rusiya Türkiyəyə satdığı təbii qazın həcmini 3 milyard kubmetrə qədər artıracaq. Gələn il yanvarın 1-dən isə Rusiya mavi yanacağın satış qiymətini 6 faiz aşağı salacaq.

## Riqa Avropanın ən uğurlu mədəni paytaxtlarından biri sayılıb



Avropanın mədəni paytaxtı olan Riqada keçirilən yekun mətbuat konfransında proqramın təşkilatçıları bildiriblər ki, Riqa Avropanın ən uğurlu mədəni paytaxtlarından biri kimi qeyd olunub.

Latviya paytaxtının mədəni məkanını zənginləşdirən yeni festivallar keçirilib. Avropanın mədəni paytaxtı ili üçün məxsusi olaraq bir neçə yeni əsər ərsəyə gətirilib: Artur Maskatsın "Valentina" operası, bəstəkar Kristap Petersonun və librettoçu Sergey Timofeyevin "Mixail və Mixail şahmat oynayırlar" avanqard opera-mühazirəsi və s. Proqram çərçivəsində bir neçə poeziya toplusu çap olunub, sənədli və bədii filmlər çəkilib.

## Keniyada terror aktı 36 nəfərin həyatına son qoyub



Dekabrın 2-də iki naməlum şəxsin Somali ilə sərhəddə yerləşən Keniyanın Mandun şəhəri yaxınlığındakı şaxtada çalışan fəhlələrə qarşı törətdiyi terror aktı ən azı 36 nəfərin həyatına son qoyub.

Ölkənin daxili işlər naziri hərcmərclik və qarışıqlıq törətməklə əhalini qorxu içərisində saxlayan polisin yerli sakinləri Şabab dəstəsindən müdafiə etməkdə aciz olduğunu etiraf edib.

Şaxtada çalışan xarici şirkətlərin rəsmiləri öz vətəndaşlarına vəziyyətin mürəkkəb olduğu Keniyanın şimalını tərk etməyi məsləhət görüb.

## İraq ordusu kimyəvi silah anbarını İŞİD-dən geri alıb



İraq ordusu Bağdadın şimalında yerləşən kimyəvi silah anbarını İŞİD-dən geri alıb.

AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, bu barədə kimyəvi silahın qadağan edilməsinə dair təşkilata üzv ölkələrin Haaqada keçirilən 19-cu konfransında iştirak edən İraq xarici işlər nazirinin müavini Məhəmməd Cavad əl-Douraki məlumat verib.

Kimyəvi silahlar hələ keçən ilin iyun ayından İŞİD-in əlinə keçən ərazidəki iki bunkerdə saxlanılırdı. Terrorçular raketlərin və döyüş sursatının saxlandığı anbarı aça bilməyiblər.

İraq nümayəndəsinin verdiyi məlumata görə, kimyəvi silahların məhvinə dair plan əsasında tikilən bunkerlərin ərazisinin minalardan təmizlənməsinə başlanılıb.

## Rusiya rublu ucuzlaşmaqda davam edir



Birjanın açılması ilə dollarla avro yeni rekordları təzələməkdə davam edib.

AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, Moskva birjasında avronun kursu 64 rublu keçib. Amerika valyutası olan dolların kursu isə 52,05 rubla çatıb.

Qeyd edək ki, rublun qiymətdən düşməsinin yeni dalğasına OPEC-in hasilat kvotasını dəyişməmək qərarı səbəb olub.

Ekspertlərin qənaətinə görə, rublun məzənnəsinə, həmçinin iri vergi ödənişlərinin bitməsi və dolları rubla dəyişənlərin sayının kəskin azalması da təsir edir.

## Milyonçu doğulduğu kənddəki hər bir ailəyə villa hədiyyə edib



Metallurgiya sahəsində milyonlar qazanmış çinli biznesmen Syun Şuixua doğulduğu kənddəki hər bir ailə üçün dəbdəbəli villa tikdirib. Milyonçu bu yolla kasıblıq içində yaşadığı kiçik yaşlarında onunla mehriban davranmış sakinlərə minnətdarlığını bildirib.

AzərTAc xəbər verir ki, buldozerlər kənddəki bütün taxta evləri və köhnə yolları uçurub. Onların yerində isə səliqəli evlər ucaldılıb, asfalt yollar çəkilib. İndi kənddəki 72 ailə yeni evlərdə yaşayır.

Bundan başqa, biznesmen qocaların və aztəminatlı ailələrin gündə üç dəfə pulsuz yeməklə təmin olunmasına da göstəriş verib. Yeni kənd Syun Şuixuaya 6 milyon dollardan baha başa gəlib. Amma o, bu xərcləri bir o qədər əhəmiyyətli saymır və sakinlərə gələcəkdə də əlindən gələn köməyi göstərəcəyini bildirir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Gəncədə hərbçi cərrahların toplantısı keçirilib



***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən ordu quruculuğuna göstərilən böyük diqqət və qayğı sayəsində son illər ordumuz bütün sahələr üzrə inkişaf etdirilir.***

Hazırda hərbi təbabətin müasir tələblər səviyyəsində qurulması və ordunun şəxsi heyətinə göstərilən tibbi xidmətin səmərəliliyinin artırılması üçün Müdafiə Nazirliyinin rəhbərliyi və Tibb Baş İdarəsi tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir. Hərbi qulluqçulara hərtərəfli tibbi xidmət göstərmək üçün müasir müayinə və diaqnostika sistemləri yaradılır. Tibb kadrlarının hazırlıq səviyyəsinin yüksəldilməsi üçün inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən geniş istifadə edilir. Hərbi həkimlərimiz bir çox beynəlxalq elmi konfranslarda ölkəmizi layiqincə təmsil edirlər. Elmi tədqiqat işlərinin aparılması, müasir tibb elminin son nailiyyətlərindən istifadə edilməsi üçün nəinki paytaxtda, bölgələrdə də hərtərəfli şərait yaradılır.

Bu günlərdə Gəncə qarnizon hospitalında Silahlı Qüvvələrin cərrahi ixtisaslı həkimləri ilə 2014-cü ilin yekunlarına həsr olunmuş toplantı keçirildi.

Öncə toplantıda Dövlət himni səsləndirildi. Silahlı Qüvvələrin baş cərrahı, tibb elmləri doktoru, tibb xidməti polkovniki Famil Babayev tədbiri açaraq bildirdi ki, bu toplantı Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq keçirilir. Toplantıda bölgədə yerləşən əlahiddə tibb taborlarının cərrahları, müxtəlif ixtisaslı həkimlər də iştirak edirdilər.

Sonra Silahlı Qüvvələrin baş cərrahı "Müharibə dövründə cərrahi yardımın təşkili, cərrahi yardımın təşkilində və yaralıların müalicəsinə müasir baxışlar" mövzusunda çıxış etdi. O, bu sahədə beynəlxalq təcrübədən və elmin son nailiyyətlərindən, hərbi səhiyyəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlərdən ətraflı danışdı və həmkarlarına qabaqcıl təcrübədən, tibb elminin son nailiyyətlərindən səmərəli istifadə etməyin vacibliyini tövsiyə etdi.



Tibb xidməti polkovniki Çingiz Əlləzov isə "Müharibə dövründə neyro-cərrahi yardımın təşkili, diaqnostika və müalicəsi, təxliyyəsi prinsipləri" adlı məruzə ilə çıxış etdi. O, bu sahədə işlərinin səmərəliliyinin daha da artırılması üçün dəyərli təkliflərini öz həmkarları ilə bölüşdü.

Silahlı Qüvvələrin baş anestezioloq-rentoloqu, respublikanın əməkdar həkimi Vüqar Abdullayev, hərbi tibb fakültəsinin rəis müavini, tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədov, tibb xidməti polkovnikləri Əbülfət Həmidov, Avtandil Namazov və başqaları da tədbirdə çıxış edərək öz təklif və rəylərini bildirdilər. Onlar hərbi səhiyyəmizin inkişafına göstərilən diqqət və qayğıya cavab olaraq hərbi qulluqçuların sağlamlığını qorumaq üçün öz köməklərini əsirgəməyəcəklərini vurğuladılar.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Ermənilərin girov götürdükləri azərbaycanlılarla bağlı Berlində aksiya keçirilib

Azərbaycan Tələbə Şəbəkəsi işğal olunmuş Kəlbəcər rayonunda ermənilər tərəfindən girov götürülmüş soydaşlarımız Şahbaz Quliyevin, Dilqəm Əsgərovun və Həsən Həsənovun acı taleyi ilə bağlı Berlində aksiya keçirib.

Aksiyanın keçirilməsində məqsəd Almaniya ictimaiyyətini bu məsələ ilə bağlı məlumatlandırmaq olub. Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, vətəndaşlarımızın doğma yurd-yuvalarından qovulması, Cenevrə Konvensiyalarının müddəaları pozulmaqla soydaşlarımızın öz torpaqlarımızda əsir götürülməsini əks etdirən yazılı məlumat kitabçaları aksiya zamanı şəhər sakinlərinə və turistlərə paylanıb. İnsanların diqqətini ən çox cəlb edən isə gənclərimizin geyindikləri köynəklərdə girovların şəkillərinin və dörd dildə yazılmış "Əsirlərimizi azad et" şüarının əks olunması idi.

**AzərTAc**

# Azərbaycan Əfqanıstanın mövcud ehtiyaclarını görür və bu ölkə üçün model ola bilər

***"Azərbaycan 20 il bundan əvvəl müharibə ilə üzləşib, lakin biz bütün bu təhdidləri aşmağı bacardıq və böyük irəliləyişə nail olduq. Ona görə də Azərbaycan Əfqanıstanın mövcud ehtiyaclarını görür və bu ölkə üçün model ola bilər".***

Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov bu sözləri NATO-nun Əfqanıstan üzrə nazirlər səviyyəsində keçirilən toplantısında söyləyib. Bu barədə AzərTAc-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Elmar Məmmədyarov deyib ki, Əfqanıstan hökumətinin nəhəng islahatlar gündəliyi var. Bu, yalnız təhlükəsizlik deyil. Əlbəttə ki, təhlükəsizlik davamlılığın ilk sütunudur. Sənaye və infrastruktura böyük sərmayələr cəlb edilməlidir.

Nazir bildirib ki, Azərbaycan Əfqanıstana bir çox sahələrdə, eləcə də insan kapitalının inkişafı üçün təhsil və təlim sahəsində yardım edir. Dəmir yolu əlaqəsi Əfqanıstan üçün çox vacibdir. Hazırda ölkədə bir dəmir yolu əlaqəsi var. Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Əfqanıstanı Avropa ilə birləşdirən dəmir yolu layihəsi ölkənin davamlı inkişafı üçün vacib elementlərdən biridir.

Azərbaycan xarici siyasət idarəsinin rəhbəri qeyd edib ki, qətiyyətli dəstək missiyasının başlanması Əfqanıstanın gələcəyi üçün vacibdir. Qoşunlar, təlim, maliyyə yardımı və tranzit formasında əsaslı töhfələr verməklə Azərbaycan bu missiyada öz rolunu oynayacaq.

"Bizim regiondakı proseslər onu göstərir ki, daha çox uğurlara imza atmaq üçün beynəlxalq birliyin Əfqanıstana dəstəyi qarşıdan gələn illərdə davam etməlidir", - deyə nazir vurğulayıb.

Vahid MƏMMƏDQULUOĞLU

# Döyüş tapşırığı



(hekayə)

Məni silaha sarılmağa ürəyimdə ermənilərə olan intiqam və qisas hissi məcbur etmişdi. Hər gün qapımızı cəbhə bölgəsindən alınan kədər yüklü, qəm ovqatlı xəbərlər döyürdü. Döyüşlərin gedişindən məlumat verən hərbi müxbirin səsini eşitdikcə evdə rahat otura bilmir, yalnız vuruşmaq barədə düşünürdüm. Günlərin birində qərarımı qətiləşdirib cəbhə bölgəsinə yollandım. Tanışlıq vaxtı gördüm ki, tabordakı hərbçilərin əksəriyyəti mənim kimi könüllülərdir. Yaş fərqi müxtəlif olsa da, hamı torpaqlarımızı düşməndən azad etməyə gəlmişdi. İlk döyüşümüz Yaşıltəpə yüksəkliyi uğrunda oldu. Kəşfiyyatçılar ermənilərin buradan Dağlı kəndinə hücum edəcəklərini öyrənmişdilər. İşğalçıları qabaqlamaq məqsədi ilə keçirilən əməliyyat qəfil başlandı. Bəzi əsgərlər döyüşdən əvvəl silahlarını əllərində tutub taborun həyətində ayaqlarını gen qoyaqoya elə gəzişirdilər ki, sanki düşməni bir göz qırpımında məhv edəcəklər. Əmr verilən kimi müxtəlif istiqamətlərdən irəli atıldıq. Güclü atəş səsləri yeri-göyü lərzəyə saldı, sanki ildırım çaxdı, buludlar toqquşdu, səma otrasından iki yerə ayrıldı.

Ciddi müqavimət göstərən düşmən geri çəkilmək istəmirdi. Biz də daim irəli can atır, hücuma ara vermirdik. Döyüşün qızğın çağında bir də gördük ki, bayaq əllərində silah həyətdə təşər-təşər gəzinən əsgərlər geri çəkilirlər. Səngərdə qalanlar isə şir kimi vuruşurdular. Qüvvəmizin az olmasına baxmayaraq, erməniləri geri oturdub, yüksəkliyi azad etdik. Artıq işğal təhlükəsi sovuşdu. Dağlı kəndinin sakinləri rahat nəfəs aldılar. Əməliyyatlarda bir daha əmin oldum ki, müharibə qorxaqları sevmir, döyüş meydanı yalnız cəsurların yeridir. İlk günlər güllə səsləri eşidəndə diksinib bir az qorxurdum. Amma sonralar yavaş-yavaş şəraitə alışdım, hər şey gözümdə adiləşdi. Səngərə yollananda sanki döyüşə yox, hansısa gündəlik bir iş arxasınca gedirdim. Güllə səsi eşitməyəndə, hərdən özümü narahat hiss edirdim. Elə bil nə isə çatışmırdı. Atəş açmağı da yaxşıca öyrəndiyimdən, silahımın nişangahına tuş gələn düşmən bircə göz qırpımında məhv olurdu.

Bir gün səhər-səhər məni yanına çağıran tabor komandiri mayor Şahin Kamilov dedi:

- Görürəm, sən cəsur oğlansan, yaxşı vuruşursan. Axşam Malikli kəndinə - düşmən arxasına keçib çox vacib olan bəzi məlumatları öyrənmək lazımdır. Düzdür, bu bir az təhlükəlidir, amma bilirəm ki, sən döyüşçü dostun Nurəddinlə bunun öhdəsindən gələrsən.

Heç fikirləşmədən "baş üstdə" - dedim. Sonra komandir əməliyyat zamanı qarşımızda dayanan tapşırığı xırdalığına qədər mənə izah elədi, lazımi məsləhətlər də verdi. Dağlı kəndindən bir nəfər də bizə bələdçilik edəcəkdi. Əməliyyata getmək üçün qaranlığın düşməsini gözləməliydik. Axşama yaxın bələdçimiz Mərdan da gəlib çıxdı. Yaxşıca hazırlaşdıq, zəruri əşyaları götürüb yola düşdük. Ən çətini və təhlükəlisi "Qaya" postunu keçmək idi. İstənilən an minaya düşmək ehtimalı olsa da, heç bir qorxu-filan bizi yolumuzdan saxlaya bilməzdi. Bələdçi ərazini yaxşı tanıdığından bizi təhlükəsiz yerlərlə aparırdı. Silahlar döyüş vəziyyətinə gətirilmişdi, asta-asta irəli addımlayırdıq. Təhlükəli hesab olunan sahəni keçdik, işğalçıların səngərləri arxada qaldı. Hələlik, ətrafa sakitlik hökmranlıq edirdi. Uzaqda itlər hürüşür, çaqqallar ulaşırdı. Göydən asılmış ay və ulduzlar sanki bu qaranlıq gecədə yolumuza işıq saçırdı. Yazın ilk günləri olduğundan dağ-dərələr əyninə yaşıl don geyinmişdi. Təbiətin gözəl, əsrarəngiz çağları idi. Ağaclar çiçəkləyib ağ örpəyə bürünmüşdü. Otların, gül-çiçəklərin xoş ətri adamın qəlbinə, ruhuna sığal çəkirdi. İnsanlardan fərqli olaraq müharibə ovqatına köklənməyən təbiət gecənin bu çağında gül-çiçəkdən gözəl bir çələng toxumuşdu. Heç elə bil buralarda qanlı döyüşlər getmirdi. Sanki ana təbiət bu gözəlliyi ilə insanları sülhə, həyatdan zövq almağa çağırırdı. Az qalırdı ki, ətrafın gözəlliyi ağlımızı başımızdan çıxarsın, bizə düşmən arxasında olduğumuzu unutdursun.

Ermənilər eşidib duyuq düşməsinlər deyə pıçıltı ilə danışırdıq. Xeyli yol gedib Malikli kəndinə yetişdik. Evlərin bəzilərinin pəncərəsindən çölün qaranlığına zəif işıq süzülürdü. Bir çox evlər isə zülmət içində üzürdü. Tapşırığı yerinə yetirmək üçün səhərin açılmasını gözləməliydik. Sübhə qədər açıq səma altında qalsaydıq, yəqin ki, xəstəlik tez bir zamanda yaxamızdan yapışacaqdı. Necə olursa-olsun, gecələmək üçün, özümüzə təhlükəsiz bir yer tapmalıydıq. İşığı yanmayan evlərdən birinin qapısını sındırıb burada qaldıq. Ömrümüzün bir gecəsi düşmənin yaşadığı kənddə keçdi.

Səhər hələ heç günəş yerindən çıxmamış yuxudan oyanıb lalə tək qızarmış üfüqə boylandıq. Yuxulu gözlərimiz, yorğun baxışlarımız günəşin ilk şəfəqlərində çimib yuyundu. Qonşu həyətlərdə itlər hürüşür, uzaqdan atəş səsləri eşidilirdi. Çəpəri adlayandan sonra kənddən uzaqlaşıb düşmən postuna tərəf getdik. Döyüş üçün əlverişli olan bir yerdə mövqe seçib ermənilərə göz qoyurduq. Məqsədimiz quldurların postu saat neçədə dəyişdiklərini və neçə nəfər olduqlarını öyrənmək idi. Nəfəs belə çəkmədən ətrafa nəzarət edirdik. Bir də gördük ki, budur, Maliklidən çıxan ermənilər sıra ilə posta gedirlər. Tələsmədən bir-bir onları saydıq, on bir nəfər idilər. Həmin an saata baxdım, əqrəblərin ikisi də cütləşib on ikinin üstündə dayanmışdı. Bizə lazım olan məlumatı öyrənmişdik, tapşırığa əməl olunmuşdu. Artıq geri qayıtmaq olardı. Amma biz quldurları posta yola salandan sonra Malikliyə - ermənilərin yaşadığı kəndə qayıtdıq. Geri dönməkdə məqsədimiz ermənilərin kazarmasının yerini öyrənmək idi. Geniş bir məhəllədən keçəndə həyətdə piyadaların döyüş maşınının dayandığını gördük. Deyəsən, əvvəllər bura uşaq bağçası olmuşdu. Həyətdəki pas atmış yelləncək və sürüşkənlər sükuta dalmışdı. Xeyli müddətdən bəri qaniçən ermənilər körpələr evini hərbi hissəyə çevirmişdilər. Bir vaxtlar uşaq oyuncaqları saxlanan otaqlara indi insanlara ölüm gətirən silah-sursat yığılmışdı. Həyətə girib ayaqlarımızın ucunda kazarmaya yaxınlaşdıq. Səs-səmir gəlmirdi, deyəsən, içəridə kimsə yox idi. Deməli, düşmənin canlı qüvvəsi biz fikirləşdiyimiz qədər çox deyilmiş. Həyətdəki zirehli texnikanın qabaq və arxa tərəfinə mina basdırıb ləngimədən geri döndük.

Yaşıl çəmənliklə mövqelərimizə tərəf gedə-gedə, ətrafa qulaq kəsilmişdik, narahatçılıq doğuran səs-küy yox idi, kimsə gözə görsənmirdi. Bir neçə addım atandan sonra qəflətən bir az uzaqdan ermənilər göründü. Növbəsini dəyişən on bir nəfər düşmən postdan qayıdırdı. Cəld hərəkətlə üzü üstdə yerə uzandıq ki, quldurların gözündən yayınaq. Amma gizlənməyimiz əbəs idi, deyəsən, işğalçılar bizi görmüşdülər. Yavaş-yavaş uzandığımız yerə yaxınlaşan daşnaklar bir neçə addımlıqdan bizə səsləndilər:

- Qarik!
- Onik!
- Samvel!

İşğalçılar yanılıb bizi özlərininki bilmişdilər. Yəqin heç ağıllarına da gətirməzdilər ki, onların qarşısında yerə uzanan azərbaycanlı əsgərlərdir. Fürsəti əldən vermədən qəfil atəşlə düşməni məhv etmək lazım idi. Çünki susduğumuzu görən işğalçılar hər an bizə atəş aça bilərdilər. "Bir, iki, üç" - deyib hamımız eyni vaxtda ayağa qalxıb silahlarımızı işə saldıq. Atəş səsləri axşamdan bəri davam edən sakitliyi ildırım sürəti ilə pozdu. Yer titrədi, göy silkələndi - qeyri-bərabər döyüş başlandı. Quldurlardan bir neçəsi elə ilk atəşdən yerə sərildi. Özümüzə əlverişli mövqe seçib qorxmadan vuruşurduq. Çox keçmədi ki, düşmən susdu, ətrafa sakitlik çökdü. Sürünə-sürünə sol tərəfdən onlara yaxınlaşdıq. Güllələr hədəfdən yayınmamışdı, quldurları öldürmüşdük. Qəsbkarların silahlarını götürüb aşağı düşmək istəyəndə, onlardan biri qəflətən ayağa qalxıb qaçmağa başladı. Tez onun üstünə atılıb yerə yıxdım, aradan çıxmağına imkan vermədim. Sən demə, qəsbkar meyitlərin altında gizlənərək özünü ölülüyə vurubmuş. Ləngimədən quldurun əl-qolunu bağlayıb, ağzına əski soxduq. Öldürdüyümüz daşnakların silahlarını da onun kürəyinə yüklədik. Tələsmək lazım idi; yoxsa atəş səslərini eşidən düşmən döyüşçülərinə köməyə gələ bilərdi. Posta çatmağa isə hələ xeyli məsafə var idi. Qaranlığın düşməsini gözləyə bilməzdik. Təhlükəli olsa da, "Qaya" postunu gündüz keçməliydik. Ora yaxınlaşanda bir az ayağımızı yavaşıtdıq. Qabaqda bələdçimiz Mərdan gedirdi. Onun arxasınca isə əsir götürdüyümüz Aşot adlı erməni könülsüz-könülsüz addımlayırdı. Quldura xəbərdarlıq etmişdik ki, qaçmaq fikrinə düşsə, öldürəcəyik. Başqa ermənilər kimi, Aşot da yaman qorxaq idi, əl qaldıran kimi diz üstdə yerə çökürdü.

Çox təhlükəli vəziyyət yaranmışdı. Postda dayanan ermənilər gülləri üstümüzə dolu kimi yağdırır, göz açmağa imkan vermirdilər. İri daşların arxasında mövqe tutub cavab atəşi açırdıq. Yüksəklikdə olduqlarına görə atdığımız güllələr düşmən üçün təhlükə yaratmırdı. Başları nəyə qarışdısa, bir azdan işğalçılar bizə güllə atmadılar. Güman etdik ki, yəqin döyüşçülərimiz qarşı tərəfdən onların üzərinə hücuma keçiblər. Çıxılmaz vəziyyətə düşən daşnaklar yavaş-yavaş əraziyə nəzarəti itirirdilər. Yaranmış şəraitdən istifadə edib ayaqlarımıza güc verdik. Postun altından keçəndə yenə də düşmənin atəşi ilə üzləşdik. Bələdçimiz Mərdan ayağından yaralandı. Tez onu iri bir daşın arxasına sürüyüb yarasını sarıdım. Bizə atılan güllələr arxasına sığındığımız daşlara dəyib vıyıltı qopararaq başımızın üstündəki havanı qövsvari cızıb ətrafa sıçrayırdı. Sanki odlu güllələr atəş səslərinin ritminə uyğun olaraq göydə rəqs edirdi. Hər an işğalçıların əllərində olan silahların nişangahına tuş gələ bilərdik. Ətrafa səpələnən odlu güllələrdən üzümüzə asta-asta ölüm gülümsəyirdi.

Düşmən atəşə ara verən kimi, tez yerimizdən tərpəndik. Ağır olsa da, Mərdanı kürəyimə götürmüşdüm. Ölüm təhlükəsi dolaşan zonadan çıxmağa bir neçə addım qalmış yenə də üstümüzə odlu güllələr ələndi. Ayağım qəflətən ağrıyıb isindi. Güllə topuğumdan dəymişdi, paltarım qana bulanmışdı. Özümü ayaqüstə saxlamağa çalışsam da, bacarmadım, dəhşətli ağrıya dözməyib üzü üstdə yerə yıxıldım. Yıxılsam da, bir yerdə ilişib qalmadım, sürünə-sürünə dərəni aşdım. Təhlükə sovuşmuşdu, indi düşmənin atdığı güllələr bizim üçün elə də qorxulu deyildi. Yaxşı ki, Nurəddinə heç nə olmamışdı. Döyüşçü dostum vaxt itirmədən yaramı sarıdı. Çətin də olsa, ayağa qalxıb, aşağı düşdük. Yaxınlıqdakı döyşçülər bizi tanıyıb köməyə gəldilər.

Səngərdən bir az uzaqlaşandan sonra maşına minib tabora döndük. Bizi qarşılayan komandir hamımızı bağrına basdı, sağ-salamat qayıtdığımıza sevindi. Tapşırığı yerinə yetirdiyimizə görə təşəkkür etməyi də unutmadı. Qənimət kimi gətirdiyimiz silahları və erməni əsirini ona verdik. Öyrəndiyim vacib məlumatları komandirə çatdırdım. Bir azdan Mərdanla məni xəstəxanaya apardılar.

Üç gündən sonra yanımıza gələn döyüşçü yoldaşlarımız Qəhrəmanla İsmət "Qaya" postunun ermənilərdən azad edildiyini dedilər. İndi gərgin döyüşlər Malikli kəndinin iki addımlığında gedirdi. Eşitdiyim şad xəbər yaramıza ən yaxşı məlhəm oldu. İki həftədən sonra xəstəxanadan çıxıb tabora qayıtdıq. Qanlı döyüşlər isə səngimək bilmirdi. Düşmən geri sıxışdırılırdı. İndi hərbi müxbir cəbhədən şad xəbərlər verirdi…

# İdman

## AİBA-nın yeni layihəsində ilk qələbə



Bakıda AİBA Pro Boxing turnirinin 69 və +91 kq çəki dərəcələrində növbəti döyüşlər keçirilib. Apasport.az saytının məlumatına görə, Rio-de-Janeyro-2016-ya lisenziya xarakterli yarışın II turu Azərbaycan boksçuları üçün uğurlu alınıb. 69 kq çəki dərəcəsində Tamerlan Abdullayev APB seriyasında özünün və ölkəmizin ilk qələbəsini qazanıb.

İkiqat dünya çempionumuz, London Olimpiadasının bürünc mükafatçısı Məhəmmədrəsul Məcidov ukraynalı Sergey Verveykonu məğlub etməkdə çətinlik çəkməyib. Superağır çəkidə yığmamızın əsas üzvü, adəti üzrə, görüşü vaxtından əvvəl texniki nokautla bitirib.

## "Qızıl top"a Manuel Noyer, Lionel Messi və Kriştianu Ronaldu namizəddir




Futbol üzrə Almaniya yığmasının və Münhenin "Bavariya" klubunun qapıçısı Manuel Noyer, Madridin "Real" klubunun hücumçusu portuqaliyalı Kriştianu Ronaldu və "Barselona" klubunun forvardı argentinalı Lionel Messi FİFA-nın 2014-cü il üçün "Qızıl top" mükafatına namizəddirlər.

AzərTAc Vesti.ru saytına istinadla xəbər verir ki, qalibin adı 2015-ci il yanvarın 12-də Sürixdə keçiriləcək mərasimdə bəlli olacaq. Keçən ilin yekunlarına görə bu mükafata Kriştianu Ronaldu, ondan əvvəl isə dörd dəfə ardıcıl olaraq Messi layiq görülüb.

## Serbiyadan 8 medalla



Serbiyanın Vryaçka Banya şəhərində "Golden Glove" beynəlxalq boks turnirinə yekun vurulub. Boks Federasiyasından apasport.az saytına verilən məlumata görə, Azərbaycan yığması yarışda 9 boksçu ilə təmsil olunub və 3 qızıl, 3 gümüş və 2 bürünc medala sahib olub. Avropa çempionu, Olimpiya oyunlarının bürünc mükafatçısı Teymur Məmmədov (91 kq) finalda Ukrayna nümayəndəsi İvan İyuxta üzərində qələbə qazanaraq, 1-ci yerə layiq görülüb. Superağır çəki dərəcəsində çıxış edən Kamran Mehdiyev serbiyalı Milutin Stankoviçi məğlub edib. Valeh Ramazanov isə (64 kq) finalda rusiyalı Eduard Xusainovdan üstün olub - 2:1.

## Robert Prosineçki rəsmən Azərbaycan yığmasında



AFFA-nın İcraiyyə Komitəsinin keçirdiyi növbəti iclasında millimizin baş məşqçisi təsdiqlənib. Apasport.az saytının məlumatına görə, İcraiyyə Komitəsi hazırda ölkəmizdə olan xorvatiyalı Robert Prosineçkini baş məşqçi postuna təyin edib. 45 yaşlı xorvatiyalı mütəxəssis bu postda almaniyalı Berti Foqtsu əvəzləyib. Artıq İcraiyyə Komitəsinin iclasına qatılan Prosineçki 3 il millimizdə çalışacaq.

## Həmvətənimiz Murmanskda "Şimal şəfəqi" turnirinin ən yaxşı güləşçisi olub



Murmanskda SSRİ-nin və Rusiyanın əməkdar məşqçisi N.Parxomenkonun xatirəsinə həsr olunmuş yunan-Roma güləşi üzrə 41-ci beynəlxalq turnir keçirilib. Ümumrusiya Azərbaycanlıları Konqresinin Murmansk vilayət şöbəsinin və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin yerli nümayəndəliyinin mətbuat katibi Əlihüseyn Şükürov AzərTAc-a bildirib ki, hakimlər kollegiyası həmvətənimiz, murmanskłı Xəzər Mirzəyevi turnirin ən yaxşı güləşçisi elan edib.

İdmançımız 59 kiloqramadək çəki dərəcəsində güləşçilər arasında qalib olub.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Kapitan İslamov Məmməd Seyran oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu çavuş Bədəlov Sahil Yusif oğluna 2012-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Salayev Bəhruz Çingiz oğluna Müdafiə Nazirliyi tərəfindən 2014-cü ildə verilmiş buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 409
Nüsxə 4570